**İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

*Heydər ƏLİYEV*
*Ümummilli lider*



**Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.**

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir

***Ümummilli lider Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm və insanpərvərlik prinsiplərinə xüsusi önəm verib, mükəmməl idarəçilik sisteminin formalaşdırılmasını diqqət mərkəzində saxlayıb. Hər zaman qanunsuzluğa, ədalətsizliyə, haqsızlığa və özbaşınalığa qarşı prinsipial mübarizə aparıb. 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi zamanı idarəetmə istedadı sayəsində Azərbaycanın quruculuq salnaməsinə yüksək göstəricilərlə ifadə edilən uğurlu səhifələr yazıb. Gerçəkləşdirdiyi kompleks tədbirlər nəticəsində əvvəllər sosial-iqtisadi sahələrdə geridə qalan, böhranlı vəziyyətə düşən Azərbaycanı keçmiş İttifaqın qabaqcıl respublikalarından birinə çevirə, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilib. Ümumiyyətlə, o dövrdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyi sayəsində respublikada 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlayıb, kənd təsərrüfatının ənənəvi sahələrində yüksək göstəricilər əldə edilib. Bütün bunlar isə təbii ki, əhalinin həyat şəraitinin yaxşılaşmasına, demoqrafik inkişafa, kənd və qəsəbələrin sosial-mədəni simasının müasirləşməsinə gətirib çıxarıb.***

Azərbaycan bugünkü inkişafına, beynəlxalq nüfuzuna da ulu öndər Heydər Əliyevin yüksək idarəçilik keyfiyyətləri, hadisələrin gələcək inkişaf axarını böyük uzaqgörənliklə duymaq bacarığı, millətin taleyi baxımından həlledici məqamlarda düzgün, səmərəli qərarlar qəbul etmək məharəti, bütöv və prinsipial xarakteri sayəsində nail olub. Böyük strateq, həm də məhz bu sadalanan keyfiyyətləri ilə milli liderə çevrilib, hər bir vətəndaşın maraq və mənafeyini daim uca tutduğu üçün qəlblərdə məskən salıb.

Fikrimi xalqımızın tarixinə qızıl hərflərlə yazılan və çox da uzaq keçmişdə olmayan bir taleyüklü hadisəni xatırlatmaqla təsdiqləmək istərdim. Belə ki, Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini əldə etsə də, əslində bunu reallaşdıra bilməmişdi. Təbii ki, hakimiyyətdəki naşı və bacarıqsız qüvvələrin ictimai-iqtisadi formasiya dəyişikliyinin doğurduğu ağır siyasi, sosial-iqtisadi problemləri həll edə bilməmələri də həmin məsələyə təsirsiz ötüşməmişdi. Nəticədə, ölkədə iqtisadi tənəzzül prosesi getdikcə dərinləşmiş, xalqın yaşayış səviyyəsi gündən-günə pisləşmiş, qanunçuluğa, hüquq qaydalarına əməl olunmasında ciddi problemlər yaranmışdı. Xüsusən də 1992-ci ilin mayında hakimiyyətə gələn AXC-Müsavat rəhbərliyinin siyasi səriştəsizliyi, qətiyyətsizliyi Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına, başqa sözlə, siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidli istəyi ilə Naxçıvandan paytaxta qayıtması isə dahi şəxsiyyətin nə qədər qətiyyətli, prinsipial, heç bir təhlükədən çəkinməyən, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqlədi. Respublikada hərcmərcliyin, özbaşınalığın hökm sürdüyü, sosial-iqtisadi böhranın getdikcə dərinləşdiyi, erməni qəsbkarları ilə mübarizə apara biləcək nizami ordunun yoxluğu üzündən işğalın gündən-günə genişləndiyi, bəzi xarici dövlətlər tərəfindən Azərbaycana qısqanc münasibət göstərildiyi, beynəlxalq aləmdə ölkəmizin təkləndiyi bir vaxtda dahi şəxsiyyətin hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişərək normal məcraya yönəltməsi onun müdriklik və uzaqgörənliyinin sübutu idi. Bu, eyni zamanda, Azərbaycanda qardaş qardaşın qanını axıtdığı, ölkənin necə deyərlər, "qan gölü"nə çevrildiyi günlər idi. Belə bir ağır durumda, özbaşınalığın hökm sürdüyü şəraitdə Heydər Əliyev hər an öldürülə, sui-qəsdin qurbanı ola bilərdi. Ona görə də ulu öndərin xalqın çağırışı ilə Bakıya gəlməsinin özü də bir cəsarət nümunəsi, liderlik örnəyi idi.

Bəli, belə bir təhlükəli şəraitdə paytaxta gəlib, az sonra buradan hadisələrin cərəyan etdiyi Gəncəyə getməyi, baş verənlərə düzgün siyasi qiymət verməyi ancaq Heydər Əliyev kimi fenomenal, müdrik şəxsiyyət bacara bilərdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçilməsi isə onun təkcə hakimiyyətə qayıdışı deyildi, həm də xalqın qurtuluşunun, müstəqilliyin itirilməsi təhlükəsindən xilas olmasının, dahi liderlə xalqımızın sarsılmaz birliyinin, həmrəyliyinin nümayişi idi.

Tam məsuliyyətlə qeyd edim ki, o vaxt xalqın təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə gəlməsəydi Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamaq, ölkəni vətəndaş müharibəsindən, erməni işğalının daha geniş miqyas almasından xilas etmək çox çətin olacaqdı. Amma bütün təhlükələrin qarşısı qətiyyətlə alındı, respublikada ictimai-siyasi sabitlik təmin olundu, qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi. Ermənistanın daha geniş ərazilərimizi işğal etməsinə, kütləvi qanlar axıdılmasına son qoyuldu, atəşkəsə dair saziş imzalandı.

Bütün bunlardan sonra Azərbaycanı iqtisadi cəhətdən dirçəltmək qarşıda mühüm vəzifə kimi dururdu. Bunun üçün, ilk növbədə, maliyyə imkanları yaradılmalı idi. Umummilli lider, məhz, bu məqsədlə də sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkdi, xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına mühüm məsələ kimi yanaşdı. Ona görə də iqtisadi inkişafın sürətləndirilməsinin, bu yöndə islahatlar aparılmasının, investisiya layihələrinin gerçəkləşdirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlandı.

Beləliklə, iqtisadi siyasətin mühüm istiqaməti olan yeni neft strategiyasının təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyuldu. Bakının Gülüstan sarayında 1994-cü ildə bağlanan beynəlxalq neft müqaviləsinin mühüm əhəmiyyətə malik olması nəzərə alınaraq, həmin müqavilə "Əsrin müqaviləsi" adlandırıldı. "Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 beynəlxalq şirkət iştirak etdi. Bu müqavilənin imzalanmasından sonra əlavə 19 ölkədən 41 neft şirkəti ilə 26 müqavilə bağlandı. Ümumilikdə, 1994-2014-cü illər ərzində Azərbaycanın neft sektoruna 100 milyard ABŞ dolları həcmində investisiya qoyuldu ki, bu da neft-kimya sənayesinin inkişafına, Azərbaycan neftinin dünya bazarına müstəqil nəql olunması üçün neft kəmərlərinin çəkilməsinə, neft gəlirlərinin gələcək nəsil üçün toplanmasına və indiki sosial layihələrin həyata keçirilməsinə, yeni texnika və texnologiyaların tətbiqinə və xüsusilə, yeni neft yataqlarının kəşf edilməsi, işlənilməsinə yönəldildi. Bu hadisə Azərbaycan Respublikasının ümumi iqtisadi inkişafında strateji xətt olmaqla yanaşı, ölkənin inkişafında mühüm rol oynadı və dünya miqyasında əhəmiyyətli mövqeyini yüksəltdi. "Əsrin müqaviləsi" Azərbaycanda sosial siyasətin miqyasının genişlənməsinə səbəb oldu, daxil olan böyük məbləğdə pul vəsaiti Azərbaycanın tənəzzül və xaosdan qurtulmasına imkan verdi.

Ulu öndər Azərbaycanın beynəlxalq təsərrüfat sisteminə uğurlu inteqrasiyasını təmin etmək üçün ölkənin tranzit-kommunikasiya imkanlarından səmərəli istifadəni də vacib sayırdı. Cənubi Qafqaz xalqlarının iqtisadi və mədəni inteqrasiyasında maraqlı olan Heydər Əliyev Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi kimi qlobal əhəmiyyətli beynəlxalq layihənin gerçəkləşməsi təşəbbüsünü irəli sürdü, beləliklə, Azərbaycanın perspektivdə strateji əhəmiyyətli tranzit məkana çevrilməsinə nail oldu. TRASEKA layihəsi üzrə ən mühüm tədbir – beynəlxalq konfrans ulu öndər Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirildi. Konfransın yekun sənədi olaraq "Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin inkişafına dair çoxtərəfli saziş" adlanan mühüm sənəd imzalandı.

Ümummilli lider yaxşı bilirdi ki, bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. Buna görə də 1995-ci ildən etibarən respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələləri daim diqqət mərkəzində saxlanılmışdır. Bu baxımdan, Heydər Əliyevin müvafiq sərəncamı ilə 1997-ci ildə qüvvəyə minmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir.

Ümumiyyətlə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni – Azərbaycan modelinin formalaşmasına zəmin yaranmışdır. Bu modelin fərqləndirici xüsusiyyəti isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması, sosialyönümlüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə əsaslanması idi.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın uğurlu inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında birləşdirir. Həm də onunla qürur duyuruq ki, ümummilli liderin Azərbaycan Prezidenti cənab İlham Əliyev kimi xalqının, dövlətinin maraqlarını uca tutan, hər bir vətəndaşın mənafeyini nəzərə alan, bir sözlə, hər vədini əməli işi ilə doğruldan layiqli siyasi davamçısı var. Ölkəyə rəhbərlik etdiyi illər ərzində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini göstərmiş, onun ictimai rəydə alternativsiz rəhbər kimi qəbul edilməsini şərtləndirmişdir.

Ümummilli lider Heydər Əliyevin qüdrətli dövlətin qurulmasına yönələn uzaqgörən inkişaf strategiyası son 17 ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilib, ölkəmizin siyasi-iqtisadi imkanları daha da genişlənib, beynəlxalq aləmdə nüfuzu artıb.

Bu gün bütün dünyada Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın uğurlu inkişafı etiraf edilir, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal layihələrdən bəhs olunur, aparılan islahatların iqtisadiyyatın daha da güclənməsinə təkan verdiyi vurğulanır. Eyni zamanda, Azərbaycanın Mərkəzi Asiya və Xəzəryanı dövlətlər arasında iqtisadiyyatı ən sürətlə inkişaf edən bir respublika olduğu, investisiyanın təşviqi mexanizminin sürətlə həyata keçirildiyi və əlverişli investisiya mühitinin yaradıldığı, zəngin neft və qaz sərvətlərindən səmərəli istifadə edildiyi diqqətə çatdırılır.

Bu nailiyyətlərin təsdiqi olaraq, ötən dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatında əldə olunan yüksək göstəricilərin bir qisminə nəzər salaq. Belə ki, 16 il ərzində iqtisadiyyat 3 dəfədən çox böyüyüb. Ümumi daxili məhsul 80 milyard manata qədər artıb, iqtisadiyyatın güzgüsü olan Dövlət büdcəsinin xərcləri 18 dəfə artaraq 1,5 milyard manatdan 27 milyard manata yüksəlib.

Azərbaycan yenidən qurulub, müasirləşib və hazırda bütün əsas göstəriciləri ilə beynəlxalq standartlara doğru sürətlə irəliləyir. Hədəf Azərbaycanı yaxın illər ərzində inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş ölkələr sırasına çatdırmaqdır. Dövlətimizin başçısı bu yüksək vəzifəni ən layiqli bir səviyyədə yerinə yetirir. Cənab İlham Əliyevin gərgin əməyi və qətiyyətlə reallaşdırdığı islahatlar bizi bu vəzifənin gerçəkləşəcəyi günə daha da yaxınlaşdırır.

Aparılan islahatları, bütün sahələrdə görülən işləri şəxsi nəzarətdə saxlamaq möhtərəm Prezidentin Azərbaycan naminə heç nəyi əsirgəməmək məramından irəli gəlir. Dövlət başçısının rəhbərliyi ilə son 4 il ərzində aqrar sektorda aparılan uğurlu islahatların nəticəsində ölkədə pambıq istehsalının 35 min tondan 294 min tona, barama istehsalının 200 kiloqramdan 641 tona çatması da söylənən fikrin bariz ifadəsidir.

Hazırda dünyada hökm sürən qeyri-sabitlik, xalqların və ölkələrin dinc qonşuluq şəraitində yaşamalarına göstərilən təhdidlər, həmçinin, COVİD-19 pandemiyasının fəsadları dövlətlərin öz potensiallarını inkişaf etdirməsini, vətəndaşların rifahını yaxşılaşdırmasını çətinləşdirir. Azərbaycanda isə vəziyyət göz önündədir: Ermənistanla müharibə şəraitində olan respublikamızda insan amilinə mühüm önəm verilir, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması üçün müvafiq dövlət proqramları uğurla icra edilir.

Azərbaycanda kəndlər, qəsəbələr, şəhərlər getdikcə simasını dəyişir, gözəlləşir. Belə yeniləşmə bir vaxtlar neft tullantıları içərisində boğulan Bakıətrafı yaşayış sahələrində də özünü qabarıq büruzə verir. Rayonlarda sosial obyektlər inşa olunur, yollar çəkilir, yeni iş yerləri yaradılır. Bütün bunlar, şübhəsiz ki, Prezident İlham Əliyevin çevik, praqmatik siyasətinin məntiqi nəticəsidir: Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırır, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilir, iqtisadi tənəzzülə imkan verilmir. İqtisadi uğurlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm daşıyır.

Azərbaycanda prioritet vəzifə kimi qarşıya qoyulan iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də qeyri-neft sənayesinin inkişafıdır. Dövlət başçısı İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi də məhz bu sahəyə xüsusi önəm verilməsinin bariz ifadəsidir. Xatırladaq ki, adı çəkilən sənəd qeyri-neft sənayesi ilə bağlı yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanıb. Bu zaman mövcud sahənin rəqabətqabiliyyətliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri diqqət mərkəzində saxlanılıb.

Son illər müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində ölkəmizdə sənayeləşmə sürətlə inkişaf edib, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişləndirilməklə yanaşı, yeni sənaye sahələri yaradılıb, respublikamızda bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib. Əlbəttə, bütün bunlar dövlətimizin başçısının uğurlu iqtisadi strategiyası nəticəsində gerçəkləşib.

Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini daim nəzarətdə saxlayır, vaxtaşırı bölgələrdə olur, yerlərdə qarşılaşılan mövcud problemlərin həlli üçün tədbirlər görülməsini reallaşdırır. Bu məsələdə diqqətçəkən məqam bir də odur ki, ölkə rəhbəri Azərbaycanda baş verən ekstremal proseslərə hər zaman çevik münasibət bildirir, hadisə yerində olur, insanlarla görüşür, onların qayğıları, problemləri ilə dərindən maraqlanır, çətinliklərin aradan qaldırılması məqsədilə müvafiq dövlət qurumları rəhbərlərinə konkret tapşırıq və tövsiyələr verir.

Dünyanı bürüyən COVID-19 pandemiyasının ölkələrin sosial-iqtisadi sahələrində yaratdığı fəsadların aradan qaldırılmasına cəhd göstərildiyi bir vaxtda, Azərbaycan özünün yeni sosial-iqtisadi paketi ilə həmin problemlərin həlli istiqamətində müsbət nəticələrə nail olub. Azərbaycanın inkişafında iqtisadi amilin rolunu önə çəkən Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilib, əhalinin məşğulluğunun təmin olunması istiqamətində müxtəlif layihələr gerçəkləşdirilib və xüsusi karantin dövründə müvəqqəti işsiz qalan vətəndaşlara yardımların verilməsi reallaşdırılıb. Bir sözlə, sosial dəstək tədbirlərinin miqyası genişləndirilməklə bir daha həyata keçirilən siyasətin önündə vətəndaş amilinin dayandığı təsdiqlənib.

Bu gün məcburi köçkünlərin sosial problemlərinin həllinə yönələn tədbirlər də Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində uğurla davam etdirilir. Ölkəmizdə sosial rifahın yüksəlişi, insanların həyat səviyyəsinin yaxşılaşması hələ də doğma torpaqlarının nisgili ilə yaşayan qaçqın və məcburi köçkünlərin timsalında özünü aydın büruzə verir. Ölkə rəhbərliyinin bu qəbildən olan insanlara xüsusi diqqət və qayğısının nəticəsidir ki, məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların mənzil-məişət şəraitləri əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Respublikamız MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə qərarlaşır. Buna baxmayaraq, Azərbaycan bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkədir.

Respublikamızın bu uğurları təsadüfi deyil. Belə ki, Azərbaycan həmişə dünyaya sülhü, əməkdaşlığı önə çəkən çağırışlar edib, ölkələrin bir-birinin suverenliyinə hörmətlə yanaşmalarının, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini vurğulayıb. Öz xarici siyasət xəttini də, məhz, sadalanan bu prinsiplərə əsasən qurub.

Ulu öndər Heydər Əliyevin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Respublikamız ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu seçməklə demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır.

Bütün yuxarıda qeyd edilənləri ümumiləşdirib fəxrlə deyə bilərəm ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur. Ümummilli lider "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik", – deyərək bu nəcib missiyanı öz üzərinə götürdü, müstəqil, qüdrətli Azərbaycan dövlətini yaratdı.







*Elşad ABBASOV,*
*"Embawood" şirkətinin baş direktoru*